# Bayramın, Qələbən, şöhrətin mübarək, Azərbaycan qadını!

Yeni dünya qadınları, sözün həqiqi mənasında, kifayət qədər təzyiq altındadırlar. Ona görə də siyasi fəaliyyəti dövründə daim öz xalqının və ölkəsinin problemləri ilə yanaşı, beynəlxalq aləmdəki problemlərin həllinə də öz töhfəsini verən İlham Əliyev beynəlxalq ictimaiyyəti qadınları qorumağa çağırır. Bir azərbaycanlı olaraq bununla fəxr edirik.

Bu gün Azərbaycan qadını dünyanın ən islahatçı ölkəsinin Birinci vitse-prezidentidir. Bu gün Azərbaycan qanunverici orqana xanım deputatın rəhbərlik etdiyi azsaylı ölkələrdən biridir. Bu gün Qafqazın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının üzvlərinin 40 faizdən çoxu xanımlardır. Xanım deputat, xanım nazir, xanım rayon, şəhər rəhbərləri Azərbaycan üçün adi haldır. Müəllimlərimizin, həkimlərimizin, tələbələrimizin mütləq çoxluğu xanımlardır. Yəni bu gün Azərbaycan qadın hüquqlarının ən yüksək səviyyədə qorunduğu, gender siyasətinə mükəmməl şəkildə əməl edildiyi ölkələrdən biridir.



*Qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çevirərək nəsillərin varisliyi prinsipini qoruyur və ədəbi-ictimai, elmi-mədəni fikir salnaməmizdə iz qoymuş maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirirlər.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə qələmə aldığımız bu sətirlərin önündəcə Prezident İlham Əliyevin Azərbaycan Dövlət Universitetinin 100 illik yubileydə dediyi "Biz qadınları qorumalıyıq, onlar bizi yox..." fikrini xatırlatmaq istədim. Çünki bu gün qadınlar dünyada davam edən pandemiya bəlasına qarşı mübarizə aparan əsas qüvvə olaraq qalırlar. Münaqişə, müharibə və müxtəlif terror-təxribatlardan ən çox əziyyət çəkən məhz qadınlardır. Qlobal istiləşmənin və iqlim dəyişmələrinin törətdiyi fəsadlar ilk növbədə qadınları zərərdidə edir. Ərzaq çatışmazlığı nəticəsində ac qalan körpəyə görə, təbii fəlakət nəticəsində həlak olanlar və ya itənlərə görə ən çox əziyyət çəkən qadınlardır.***

Ötən il qeyd etdiyimiz 8 Mart bayramından sonra Azərbaycan qadını dünya xanımlığının tarixinə özünəməxsus səhifələr yazmışdır. 2020-ci ilin ən dəhşətli faktı olan GOVID - 19 pandemiyası tüğyan edəndə Azərbaycan qadını bu qorxunc bəlaya qarşı mübarizənin ön cəbhəsində oldu. O zaman "Xalq qəzeti" həmin mübarizəni müharibəyə bənzədərək yazmışdı ki, "Qadınlar yenə də ön cəbhədədirlər".

İş elə gətirdi ki, sentyabrın 27-də Ermənistan rəhbərliyi Azərbaycanın daha bir neçə rayonunu işğal etmək üçün növbəti təxribata əl atdı və Silahlı Qüvvələrimizin Ali Baş Komandanı ordumuza "İrəli!" əmri verdi. Bu hərbi əməliyyatlarda da azərbaycanlı həkim qadınlar ön cəbhədə oldular. Özü də könüllü olaraq. Yeri gəlmişkən, son beş-altı ildə ölkəmizdə böyük vüsət almış könüllülər hərəkatına qoşulanların yarıdan çoxu gənc xanımlardır.

Ümumiyyətlə, bizə möhtəşəm Qələbə qazandıran İkinci Qarabağ müharibəsinin də əsas ağırlığını qadınlar çəkdilər. Minlərlə azərbaycanlı xanım şəhid anası kimi, minlərlə qadın qazi anası kimi mənəvi ağrılara məruz qaldı. Biz xoşbəxtik ki, şəhid və qazi analarının heç biri aldığı ağrıdan sarsılmadı. Biz bütün xanımlarımızdan "Təki Vətən sağ olsun!", "Oğlum şəhid olsa da, Vətənim azad oldu!" kimi qürurlu ifadələr eşitdik. Azərbaycan qadınları ömürlərinin ən sevincli anını yaşadı, əsrlər boyu həsrətində olduğumuz şanlı Qələbəyə şahidlik etdilər.

Bu, bir faktdır ki, ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu 1969-82 ci illərdə və 1993-cü ilin yayından sonra Azərbaycan qadını cəmiyyətin aparıcı qüvvələrindən biri kimi daim hörmət və nüfuz sahibi olmuşdur. 2003-cü ilin payızından sonra isə biz yeni reallıqlarla üzləşdik. Qloballaşan dünyanın mühüm çağırışlarına cavab verə biləcək səviyyədə müasir düşüncəli, intellektual təfəkkürlü xanımlarımız dövlətin möhkəmləndirilməsi, cəmiyyətin demokratikləşdirilməsi, Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun daha da yüksəldilməsi məqsədilə müxtəlif vəzifələrə təyi olundu və müsbət nəticələrə imza atdılar.

Ekspertlər yazırlar ki, hər hansı bir dövrdə qadına münasibət ilk növbədə ölkə başçısının qadın siyasətindən asılıdır. Bu sahədə bizim qadınları bəxtigətirmiş hesab etmək olar. Çünki uzun müddət bizim müstəqil dövlətimizin başında bəşər tarixinin XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət, ən böyük dövlət xadimi, fitri istedada malik siyasi lider, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dururdu.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə ölkəmiz "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi" Konvensiyasına qoşulmuşdur. Bu gün dünyada inkişaf etmiş elə dövlətlər var ki, onlar hələ də bu konvensiyaya qoşulmayıblar. Çünki onlar həmin konvensiyaya qoşulmağa hazır olmadıqlarını etiraf edirlər. Konvesiyaya qoşulmaq elə də asan iş deyil, bunun üçün ölkədə əlverişli şərait olmalı və müəyyən müvafiq vəzifələr yerinə yetirilməlidir. Dövlətimizin keçid dövründə yaşamasına, ölkəmizdə müharibə getməsinə, torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında olmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünümüzün olmasına baxmayaraq, bizim bu konvesiyaya qoşulmağımız mərhum Prezidentimiz Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Ölkəmiz bu konvensiyaya qoşulandan sonra görülən işlər haqqında BMT-yə hesabat verilmişdir. Həmin heesabat yüksək qiymətləndirilmiş və Azərbaycanın Xarici İşlər Nazirliyinə təşəkkür məktubu gəlmişdi.

Ulu öndərin dövlət idarəçiliyi prinsiplərini uğurla davam etdirən Prezident İlham Əliyev gender məsələlərini də daim diqqət mərkəzində saxlayır. Məhz dövlət başçımızın tapşırığı ilə ölkənin ictimai-siyasi həyatında qadınların təmsilçiliyinin genişlənməsinə çox böyük diqqət yetirilir. İlham Əliyevin sərəncamları ilə həyatımızın müxtəlif sahələrində fərqlənmiş bir çox qadınlar yüksək mükafat və fəxri adlara layiq görülüblər. Ölkəmizdə beynəlxalq təcrübə tətbiq olunur, ailələrin rifahını yüksəldilməsi, qadınların ictmai-siyasi həyatda daha çox cəlb olunması, uşaqların hüquqlarının təmin edilməsi və onlar üçün zəruri şəraitin yaradılması yönündə ciddi işlər görülür.

Bu gün Azərbaycan qadınından danışarkən ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESGO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın adını çəkməmək olmaz. Mehriban Əliyevanın bir vətəndaş kimi, Azərbaycanın bu günü, gələcəyi üçün gördüyü, ölkəmizin tərəqqisinə verdiyi töhfələr hər bir xanım üçün nümunə ola bilər. Onun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördüyü işlərə diqqət yetirmək kifayətdir ki, fəaliyyətinin miqyası barədə təsəvvür yaransın.

Bəli, bu gün Azərbaycan qadını tarixinin ən şərəfli günlərini yaşayır. Çünki onun oğlu, qardaşı, əri müstəqil Azərbaycan dövlətinin ərazi bütövlüyünü bərpa edib. Onun dövləti qüdrətlidir. O, müstəqil Azərbaycan dövlətinin idarə edilməsində fəal iştirak edir. Ulu şairimiz Səməd Vurğunun "Adın şərəflidir, sənin, ey qadın!" misrası bu gün fəxrlə, iftixarla "Mən azərbaycanlıyam" – deyən xanımlarımıza daha çox yaraşır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***